CESD, www.cesd.az

Better research, better policy, better reform

CESD | CENTER FOR ECONOMIC & SOCIAL DEVELOPMENT

Global Think-Tank

# The Great Return and employment policy: opportunities and expectations

## (Böyük Qayıdış və məşğulluq siyasəti: imkanlar və gözləntilər)

**Karamat Ismayilov**

Center for Economic and Social Development (CESD)
Caspian Plaza, 3rd Block, 14th floor
J.Jabbarli str. 44,
Baku, Azerbaijan
Phone: (99412) 5943665
Fax: (99412) 5943665
Email: info@cesd.az
URL: www.cesd.az

© CESD Press

Baku, November 2024

## Astract (in English)

The purpose of the research is to analyze and evaluate the settlement and efficient use of human resources in the economic regions of Eastern Zangezur and Karabakh. Observation, comparison, dialectical approach, economic-statistical research, and other methodologies were used in the writing of the article, justification of new directions.

The applied importance of the research is that the results obtained in the work and the proposed proposals can be used in the implementation of measures related to the acceleration of socio-economic development in Karabakh and East Zangezur economic regions, raising the standard of living of the population, and increasing employment in the country.

In the article, the implementation of sustainable settlement and employment processes is studied, and specific recommendations are put forward. The originality and scientific innovation of the research is the effective settlement of internally displaced persons, ensuring their employment and increasing the economic power of these regions in the future.

**Keywords:** settlement, employment, labor market, workforce, green economy, natural resources, tax and customs benefits, social and economic development.

Mündəricat.

1.Giriş.

2.Böyük Qayıdışın effektiv təşkil edilməsi.

3. Məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi .

4.Məcburi köçkünlərin bilik və peşə bacarıqlarının artırılması.

5.İnvestisiyaların cəlb edilməsində vergi mexanizmlərinin rolu.

6.Nəticə və təkliflər.

7.İstifadə olunan ədəbiyyat və linklər.

## X Ü L A S Ə

Tədqiqatın məqsədi - Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarındaa məskunlaşma və insan resurslarından səmərəli istifadə edilməsinin təhlil edib qiymətləndirməkdir.

Tədqiqatın metodologiyası - məqalənin yazılmasında, yeni istiqamətlərin əsaslandırılmasında müşahidə, müqayisə, dialektik yanaşma, iqtisadi-statistik araşdırmalar və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatn tətbiqi əhəmiyyəti - ondan ibarətdir ki, işdə əldə olunmuş nəticələr və irəli sürülən təkliflər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkədə məşğulluğun artması ilə bağlı tədbirlərin həyata keçirilməsində istifadə oluna bilər. Məqalədə dayanıqlı məskunlaşma və məşğulluq proseslərinin həyata keçirilməsi öyrənilir, konkret tövsiyələr irəli sürülür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məcburi köçkünlərin effektiv məskunlaşması ,onların məşğulluğunun təmin edilməsi və gələcəkdə bu bölgələrin iqtisadi gücünü artırmaqdan ibarətdir. Açar sözlər: məskunlaşma,məşğulluq,əmək bazarı ,işçi qüvvəsi, yaşıl iqtisadiyyat, təbii resurslar,vergi və gömrük güzəştləri sosial və iqtisadi inkişaf.

## Giriş.

2020 ci ildə 44 günlük müharibədən sonra azad edilmiş ərazilərdə dağıdılmış şəhər və kəndlərin minalardan və partlamamış sursatlardan təmizlənməsi ilə yanaşı yenidənqurma və bərpa işlərinə başlanıldı. Belə ki, 2021-ci ilin 7 iyul tarixində Azərbaycanda iqtisadi rayonların yeni bölgüsünü təsdiqləmiş və bununla da ölkə iqtisadiyyatının idarə olunması ilə bağlı yeni idarəetmə mexanizmlərin formalaşdırılmasının əsası qoyulmuşdur. Fərmanla işğaldan azad edilən ərazilərin bərpasından sonra məcburi köçkünlərin məskunlaşacağı və məşğulluğunun təmin olunacağı iki iqtisadi rayon − Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edən) yaradılıb. Bu iqtisadi rayonların yaradılmasının əsas səbəbi də işğaldan azad edilmiş ərazilərin bərpası, gələcəkdə dayanıqlı inkişafının təmin

olunması, ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsidir. 2022-ci ilin 16 noyabr tarixində təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının məcburi köçkünlərin yurdlarına qayıtmasında mühüm əhəmiyyətə malik olacaqdır.Dövlət proqrqamının əsas istiqamətləri işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz yaşayışın ,dövlət idarəetmə işinin yenidən təşkili, yaşayış məntəqələrinin tikilişi və infrastrukturla təmini, məcburi köçkünlərin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması, ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması, dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası, ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi təşkil edir.   2024-cü ilin ötən dövründə Azərbaycan iqtisadiyyatında baş verən artım bu baxımdan təqdirəlayiqdir. Belə ki, bu ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft/qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM  real ifadədə 4,3 faiz artıb. Qeyri-neft  sektoru üzrə isə artım 7,7 faizdir. Bütün bunlar 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirib. Yenilənmiş makroiqtisadi proqnozlara əsasən 2024-cü ilin dövlət və icmal büdcələrinin göstəriciləri təhlil edilib və həmin büdcələrə müvafiq qanunvericiliyə uyğun olaraq  dəyişikliklər edilib. Dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Ona görə də yeni xərclərin əsas hissəsinin   Qarabağ və Şərqi Zəngəzurda iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə yönəldilməsi nəzərdə tutulur. Xatırladaq ki, 2024-cü ilin dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manatın ayrılması nəzərdə tutulub. Dövlət büdcəsinə təklif edilən dəyişikliklərdən sonra isə bu məbləğ 1 milyard 160 milyon manat artırılacaq.

## Böyük Qayıdışın effektiv təşkil edilməsi.

44 günlük  müharibədən sonra məcburi köçkünlərin Qarabağa və Şərqi Zəngəzura  Böyük Qayıdışını  həyata keçirilməsini şərtləndirmişdir.  Dünya təcrübəsi göstərir ki, konfliktdən sonrakı dövrdə məcburi köçkünlərin böyük əksəriyyətinin əsas seçimi könüllü şəkildə, təhlükəsiz və insan ləyaqətinə uyğun şəraitdə əvvəlki yaşayış yerlərinə qayıtmaq və ya repatriasiya etməkdir. Repatriant adlanan bu qayıdanlar üçün qeyd edilən proses məcburi köçkün statusunun aradan qalxması və reinteqrasiya prosesi vasitəsilə konfliktə qədərki ərazilərdə yenidən dayanıqlı məskunlaşmaya və iqtisadi fəaliyyətlərə qovuşma deməkdir. Bu baxımdan təcrübə göstərir ki, effektiv təşkil edilmiş repatriasiya fiziki təhlükəsizlik təminatı, hüquqi təminat, maddi təminat və birgə yaşayışın təmini kimi bir çox önəmli komponenti özündə birləşdir. Repatriasiyanın uğurlu həyata keçirilməsi üçün ilkin  və ən vacib şərt fiziki təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsidir. Repatriasiya prosesinə köhnənin bərpası  kimi yox , yenidənqurma və yenidən məskunlaşmada daha effektiv yanaşmalara üstünlük verilir. Qarabağ və Şərqi Zəngəzura geri dönəcək insanların yeni şəraitə və məskunlaşma strukturuna adaptasiyası çox vacibdir. Böyük Qayıdışın uğuru onun kütləviliyini təmin etməkdən ibarətdir. Ona görə də, repatriasiyanın kütləvi olması üçün  dövlət  repatriantların fiziki təhlükəsizlikləri ilə yanaşı, ev-mənzil şəraitini və məşğulluqlarını da təmin edəcəkdir. Böyük Qayıdış Proqramında  2026  cı ilə kimi Qarabağ və Şərqi Zəngəzura 36500 ailə və ya 140.000 insan köçəcəyi nəzərdə

tutulub. Yenidənqurma işlərində, infrastruktur da müasir tipli yaşayış fondlarına uyğun olaraq, ən yüksək standartlara cavab verməli və smart texnologiyaların geniş istifadəsinə əsaslanmalıdır. Bu yanaşma, elektrik enerjisi təminatı, su təchizatı və kanalizasiya sistemləri, qaz təchizatı, nəqliyyat və kommunikasiya, sosial infrastruktur (təhsil, səhiyyə, mədəniyyət, idman), idarəetmə infrastrukturu kimi bütün infrastruktur sahələrinə münasibətdə əsas götürülməlidir. Qarabağ və Şərqi Zəngəzurda aparılacaq irimiqyaslı bərpa və yenidənqurma işlərinə, potensial məcburi köçkünlərin cəlb edilməsi bir neçə cəhətdən, o cümlədən də daimi məskunlaşmaya hazırlıq baxımından da əhəmiyyətlidir. Onu da nəzərə almaq lazımdır ki, məcburi köçkünlər arasında hazırda xeyli sayda işsiz və stabil gəliri olmayan insanlar vardır. Ona görə də Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərində əsas etibarilə əmək qabiliyyətli məcburi köçkünlərə üstünlük verilməsi daha məqsədəuyğundur.Həm də ona görə vacibdir ki, onların və ailə üzvlərinin gələcək həyatlarını bu torpaqlara dayanıqlı bağlılığını artıracaqdır. Məskunlaşmanın yeni modeli əsasında bu torpaqlarda iqtisadi fəaliyyətin yenidən qurulması, onun bərpasına xidmət edən infrastrukturların yaradılması mexanizmi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları digər iqtisadi zonalardan xeyli dərəcədə fərqləndirəcək. Burada önəmli olan məsələlərdən biri də şəxsi təsərrüfatlardan istifadənin düzgün istiqamətləndirilməsi, onlara dövlət dəstəyi, eyni zamanda dövlət mülkiyyətində olacaq istehsal obyektlərinə nəzarətin şəffaflığıdır. Dövlətin nəzarəti müasir idarəetmə mexanizmlərinin tələblərinə uyğun olmalıdır. Dövlətin məskunlaşma planına (burada kəndlərin, qəsəbələrin və şəhərlərin yenidənqurulma planı, memarlıq işləri və s. aiddir) əməl etməklə yanaşı əhaliyə imkan yaradılmalıdır ki, məskunlaşmada öz vəsaitlərindən də istifadə edə bilsinlər. V.Əfəndiyev və S.Nağıyevin fikirlərinə görə “ayrıca həyəti - mülkü olan <u>*dispers*</u> (dağınıq) kənd məskunlaşması insanların təbii ehtiyatlara (əkinçilik üçün baza olan torpaq fondu, təbii bitki örtüyü, ovgluq yerləri və s.) daha da yaxınlaşdırır. Bunlardan əldə edilan maddi nemətlər onlar üçün təssərrüfatların əsasını təşkil edir.” Dövlət bəlli kompensasiya, güzəştli kredit imkanları yarada bilər, fərdi evlərin layihələndirilməsində köməklik göstərə bilər, amma sonadək bütün xərcləri üzərinə götürə bilməz. Həm də bu rəngarənglik yox, standart arxitektura yaradacaq, bu isə istər eksteryer, istərsə də interyer baxımdan zövqsüzlüyə yol aça bilər.

Qarabağ və Şərqi Zəngəzurun tarixi arxitektura ənənələrinə söykənərək yeni, modern üslubda “ağıllı kənd” layihələrində fərdi yanaşmaya imkan yaradılmalıdır. Məskunlaşmanın yeni modeli yalnız əhalinin doğma yurdlarına dönməsi, investisya yatırımları, istehsal müəssisələrinin, səhiyyə, təhsil ocaqlarının yaradılması deyil, eyni zamanda bu yerlərdə yeni insan faktorunun formalaşması deməkdir. Məcburi köçkünlərin uzun müddət qaçmağa məcbur olduqları yerlərdə təhlükəsizlik, əmlakın bölüşdürülməsi, iqtisadi səmərəlilik, idarəetmə və xidmət sahələrində transformasiya edilmişdirlər. Bu amillər geri qayıdanların harada və necə reinteqrasiya oluna biləcəyini seçməkdə həlledici rol oynayır və kömək edir.

Bəşər tarixində belə bir hadisə olmayıb ki,insanalar tamamilə dağıdılmış şəhər və kəndlərə 30 ildən sonra geri dönsün.Müharibəndə sonra məcburi köçkünlər qarşısında belə sual yarandı ki,coğrafi mənşəyinə qayıtsınlar yoxsa başqa yerdə məskunlaşsınlar. Azad edilmiş ərazilərə geri dönəcək insanların əsas problemi məşğulluq olacaqdır.Patrisia W.Fagenin fikrincə” məcburi köçkün düşmüş insanlar sülh şəraiti bərpa olunana qədər geri dönməyi təxirə salırlar. Geri dönəcək məcburi köçkünləri maddi yardımlardan daha çox təhsilə və tibbi yardıma çıxışları düşündürür”. Məskunlaşmanın yeni modeli həm dərin iqtisad-riyazi təhlilərin nəticəsi kimi,həm də

bu yerlərdə məskunlaşacaq insan resurslarının bilik və bacarıqlarının formalaşması və inkişafında böyük rol oynayacaqdır. Məskunlaşmanın effektiv həyata keçirilməsi bu regionların iqtisadi potensialını artıracaqdır. Bu eyni zamanda işsizlik səviyyəsinin qarşısını almaqla yanaşı, həm də iqtisadi inkişafı təmin edəcəkdir.

## Məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi.

Azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaqdır. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək və işğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə təmin olunacaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialı ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcəkdir. Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcəkdir. Strategiyaya görə 2026-cı ilə qədər Böyük Qayıdış proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır

Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin edilməsi üçün strateji sənədlər qəbul edilmişdir. Dövlətin məşğulluq siyasətinin əsas məqsədi geniş mərhələdən məhsuldar mərhələyə keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdir. Prioritet istiqaməti kimi gənclərin və qadınların peşə təhsilindən əmək bazarına inteqrasiyasını gücləndirmək məqsədilə rəqəmsal texnologiyalardan geniş istifadəyə keçidin təmin edilməsi müəyyən edilməlidir.

Hədəflərdən biri də 2030-cu illədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmaq və peşə təhsilində bütün kurikulumların peşə standartları əsasında hazırlanmasına nail olmaqdır.

Strategi hədəflərindən biri də işsizlik səviyyəsini 2030-cu illədək 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirməkdir.Bəzi iqtisadçıların fikrincə işsizliyin 1% artımı ÜDMi 2.5%ə qədər azaldır.Digər priorertlərindən biri də dayanıqlı məşğulluğa yönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsidir.

Belə görsənir ki, hökümət rasional məşğulluq strukturunun daha da təkminləşdirəcəkdir. O, sosial və əmək bazarının tələblərinə cavab verən, tarazlaşdırılmış əmək bazarının yeni ixtisaslar və yeni iş yerlərinin yaradılmasını hədəfləmişdir. Yeni yaradılacaq iş yerlərinin və mövcud olanların səmərəliliyinin artırılması, əmək və intellektual potensialın inkişaf etdirilməsi, habelə kadr hazırlığı və yenidənhazırlanma sistemlərinin təkmilləşdiriləcəkdir. Buradan belə nəticəyə gəlmək olar ki, hökumətin iqtisadi siyasətinin mərkəzində ilk növbədə məşğulluq problemləri olmalıdır. Ona görə də hökumətin iqtisadi siyasəti dayanıqlı məşğulluğun təmin edilməsi və səmərəli iş yerləri sisteminin inkişafına maraqlıdır. Eyni zamanda dayanıqlı məşğulluğun təmin edilməsi iqtisadi və sosial inkişafın əsasıdır.

Məskunlaşmanın dayanıqlı və davamlı olması üçün repatriasiya edəcək insanların ev/mənzil təminatı ,fiziki təhlüükəsizliyi ilə yanaşı məşğulluğunu da təmin etmək lazımdır.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafını və bu regionlarda yaşayacaq insanların məşğulluğunu təmin etmək üçün əsas amil bu regionların sahib olduğu təbii resurslar və təbii iqlim şəraiti nəzərə alınmalıdır.Bu təbii obyektiv amillər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ixtisaslaşmasını və burada yaşayacaq insaların yaşayış şərtlərini müəyyən edəcəkdir. Bu amillərin təsiri nəticəsində əhalinin region ərazisi üzrə yerləşməsi və regional inrastrukturunun formalaşmasına şərait yaradır. Bu regionların təbii iqlim şəraitinin müxtəlifliyi təbii resursların fərqli olmasında da özünü göstərir. Ona görə də hər bir iqtisadi rayonun iqtisadi inkişafına nail olmaq üçün, məskunlaşma və məşğulluğunu təmin etmək üçün bu amillərin nəzərə alınması məqbul hesab edilir. Şərqi Zəngəzur iqtisadi rayonun təbii iqlim şəraiti və təbii resursları ona imkan verir ki, bu ərazilərdə bitkiçilik, heyvandarlıq,arıçılıq, quşçuluq ,yay-qış turizmi,dağ mədən sənayesi və s.kimi sahələrin inkişafına daha çox diqqət yetirilsin. Belə ki,Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində 160 dan çox faydalı qazıntılar yatağı var ki,onun 100-dən çoxu tikinti materialları yataqlarıdır.Bu iqtisadi rayonun iqtisadi potensialı imkan verir ki, burada istehsal olunacaq ərzaq və digər məhsulları ixrac edilsin.

İşğaldan azad edilmiş ərazilərin bərpası, əhalinin məskunlaşması və milli iqtisadiyyata inteqrasiyasını təmin etmək hazırda ölkənin qarşısında duran başlıca vəzifələrdən biridir. Bunun üçün həmin ərazilərdə istehsal, sosial, sosial-mədəni və idarəetmə infrastrukturunun tamamilə yenidən qurulması, məskunlaşacaq əhalinin məşğulluğu üçün iş yerlərinin yaradılması tələb olunur. İşğaldan azad olunmuş ərazilərdə yeni yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın bərpası və inkişafı zamanı əsas məsələ mövcud potensial və imkanlardan düzgün yararlanmaq, müasir tələblərə cavab verən, özündə innovativ yanaşmaları təcəssüm etdirən və ən vacibi, çevik, işlək mexanizm əsasında yaradılmış kompleks bir iqtisadi sistem qurulmaqdadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 10 dan artıq 110 kV-luq yarımstansiya tikilmiş, 500 km-ə yaxın 110 kV-luq elektrik xətti çəkilmiş, Ağdam rayonunda Regional Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilmiş, Şuşa şəhərində istehlakçılara elektrik xətləri çəkilmiş və elektrik təsərrüfatı yaradılmışdır. Bununla yanaşı, “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları yeni yaradılmış “Cəbrayıl” yarımstansiyasına inteqrasiya edilmiş, 10 ədəd yeni 110 kV-luq yarımstansiyanın tikintisi həyata keçirilir. Kəlbəcər, Laçın, Qubadlı və Tərtər rayonlarında işğaldan azad edilmiş ərazilərdə 45 ədəd su elektrik stansiyası mövcuddur. Bu kiçik su elektrik stansiyalarının bərpası regionun elektrik enerjisi ilə təminatında əhəmiyyətli rol oynayacaqdır. Artıq Qubadlı rayonunda 8 MVt gücündə “Güləbird” su elektrik stansiyası, Tərtər rayonunda ümumi gücü 7,8 MVt olan “Suqovuşan-1” və “Suqovuşan-2” su elektrik stansiyaları, Kəlbəcər rayonunda 4,4 MVt gücündə “Kəlbəcər-1” su elektrik stansiyası bərpa edilmişdir. İşğaladan azad edilmiş ərazilərdə yaşıl energetikanın inkişafı yaşıl iqtisadiyyata keçidi sürətləndirir və dayanıqlı məşğulluğu təmin edir.

Özünüməşğulluq çərçivəsində dünyanın ən qədim və geniş yayılmış biznes formalarından biri olan ailə təssərrüfatlarının yaradılmasına və onların inkişafına daha çox diqqət yetirilməlidir.Biznesin bu forması Böyük Britaniyada ölkə şirkətlərinin 75%-ni, ABŞ-da 90%-ni, Avropa İttifaqı ölkələrinin 85%-ni ailə biznesi şirkətləri təşkil edir. Rokfeller, Ford, Opal-B, Siemens, Adidas, Samsung Electronics və s. kimi nəhəng

korporasiyalar ailə biznesi kimi başalanılıb və bu günkü dünya siyasətinə təsir edə bilirlər. Buna ən yaxşı misallardan biri olaraq ABŞ-ın Uolton ailəsini göstərmək olar. Ailə 1962 ci ildə qurduğu və indi dünyada 4000 çoxdan «Wal-Mart Stores» supermarketlər şəbəkəsinə sahibdir ki, ildə 210 milyard dollardan çox gəlir əldə edir. Ailə təssərrüfatı biznesinin geniş yayılması və təşviqi üçün ”ABAD” publik hüquqi şəxs yaradılıb ki ,ailə təssərrufatı biznesinin bu və ya digər formalarını hərtərəfli dəstəklənsin.Bu isə öz növbəsində doğma vətənlərinə geri qayıdacaq insanların dayanıqlı məskinlaşmasını işlə təminatında, iqtisadi və maddi inkişafı cəhətdən mühüm rol oynayacaqdır. Biznesin bu formasının inkişafı ölkəmizin dayanıqlı inkişafında və büdcə daxilolmalarının diversifikasiyasında mühüm əhəmiyyət kəsb edəcəkdir. Özünütəminat çərçivəsində insanalar daha məsuliyyətli və intizamli olurlar.Ona görə də bu insanlar daima özlərini inkişafa etdirir və uğura yönümlü olurlar.Ümumiyyətlə ailə təssərrüfatı biznesinin ölkəmizdə geniş yayılması üçün biznesin bu formasının daha çox təbliğinə və təşviqinə ehtiyac vardır. Bu isə ölkədə rəqabətə davamlı iqtisadiyyatın formalaşdırılmasını, sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşdırılması ilə yanaşı, innovativ yönümlü kadr hazırlığını, yeni ideyaların sürətlə reallaşmasına imkan verən kiçik və orta biznesin inkişafını, yeni texnologiyalarla idarəetməni həyata keçirən menecerlərin olmasını tələb edir. Qeyd edək ki, regionlarda iqtisadi sahələrin keyfiyyətli kadr təminatının reallaşdırılması hazırda Azərbaycanda əsas sosial-iqtisadi problemlərdən biridir. Bu problemin əsas səbəbi kimi əmək bazarında təklif olunan işçi qüvvəsi ilə işəgötürənlərin tələbləri arasında kəmiyyət və keyfiyyət uyğunsuzluğunu, eləcə də zəruri istiqamətlər üzrə ixtisaslı mütəxəssis hazırlığındakı problemləri göstərmək olar. Bu problemlərin məcburi köçkünlərin həm indi, həm də Böyük Qayıdışdan sonra məşğulluğunun təmin edilməsində ciddi maneəyə çevrilməməsi üçün indidən zəruri addımlar atılmalıdır. Bunun üçün ilk növbədə həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonları üzrə iqtisadi fəal əhalinin hazırkı peşə-ixtisas səviyyəsi üzrə məlumatlar dəqiqləşdirilməlidir. Qeyd olunan iqtisadi rayonlarda inkişafı nəzərdə tutulan prioritet sahələr üzrə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün lazım olacaq işçi qüvvəsinin sayı, tərkibi, ixtisas səviyyəsi haqqında tam və etibarlı proqnozlar hazırlanmalıdır.Ölkədə aparılan işlər əmək bazarında müəyyən problemlərin həllinə nail olunsada yenə də gənclər arasında işsizlik səviyyəsi yüsək olaraq qalır.Bu problemlər əsasən daimi iş yerlərinin olmamasında,gənclər arasında miqrasiyanın yüsək olması və işçi qüvvəsinin keyfiyyətini göstərmək olar. Böyük Qayıdışın I mərhələsi zamanı və sonrakı dövrlərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qayıdacaq məcburi köçkünlərin zəruri peşə-ixtisas biliklərinə yiyələnməsi üçün peşə təhsilinin maddi texniki bazası müasir tələblərə uyğun qurğu və avadanlıqlarla təmin olunmalıdır. Digər tərəfdən isə məcburi köçkünlərin özünütəminat və sahibkarlıq fəaliyyətlərinin genişləndirilməsinə imkanların yaradılması və gələcəkdə bu bacarıqlar onların iqtisadi təminatımda daha da böyük rol oynayacaqdır. Beləliklə nəzərə alsaq ki, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında smart texnologiyalardan geniş istifadə nəzərdə tutulub,onda yüksək səviyyəli innovativyönümlü və peşəkar kadrlara ehtiyac olacağı aydındır. Zəngəzur dəhlizi açıldıqdan sonra Qarabağ və Şərqi Zəngəzur bölgələrinin iqtisadi potensialı da artacaqdır. Nəqliyyat dəhlizi tam işə düşdükdən sonra bölgədə fərdi və ailə təsərrüfatları,kiçik və orta biznes də inkişaf edəcəkdir. Dəmir yolu , avtomobil yollararının , Füzuli Laçın və Zəngilan hava limanlarının tam işləməsi Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialını artıracaqdır və eyni zamanda yeni iş yerlərinin

yaradılmasını şərtləndirəcək, həm də yüksək səviyyəli mütəxəssislərə tələbatı artıracaqdır. Daşımaçılıq, turizm, sənətkarlıq və s. digər xidmət sahələrinin inkişafına da təkan verəcəkdir. Digər tərəfdən də bu regionlara investisiya qoyuluşu artacaq və eyni zamanda yeni biznes ideyalarının reallaşmasına və yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır.C.Abuzərlinin fikrincə isə "daxili və xarici investisiya fəallığının artırılmasına aqrar sahədə məşğulluğun yüksəldilməsinin vacib şərti və onun dayanıqlı inkişafını müəyyənləşdirən əsas amil kimi baxılmalıdır."

Qarabağ və Şərqi Zəngəzura köçürüləcək sakinlərin məşğulluğunun təmin olunması Böyük Qayıdış proqramının icrası çərçivəsində aparılan genişmiqyaslı işlərin bir istiqamətidir. Məskunlaşmanın və məşğulluğun dayanıqlı təmin olunması üçün həmin ərazilərdə aktiv məşğulluq proqramları və sakinlərin bu proqramlara cəlb olunması işləri geniş yer verilməlidir.

Azad olunmuş ərazilərin geniş turizm,dağ mədən və emal sənaye imkanları vardır. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisinin ənənəvi məşğulluqları və bacarıqları da nəzərə alınmalıdır. Qarabağ və Şərqi Zəngəzurda tarixən mövcud olan üzümçülük ,tütünçülük ,baramaçılıq , arıçılıq,heyvandarlıq və s. yanaşı həm də yeni trend olan intensiv meyvəçilik də da inkişaf etdirilməsi məqsədəuyğundur .

Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin sakinlərinin məşğulluğuna dəstək məqsədilə ƏƏSMN -in tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən onlar üçün kənd təsərrüfatı, tikinti, turizm, sənaye və s. sahələr üzrə ödənişsiz işsiz və ya işaxtaran şəxslər üçün 6 aylıq peşə hazırlığı kurslarının təşkilinə də başlanıb. İqtisadi və Sosial İnkişaf Mərkəzi bir beyin mərkəzi olaraq BP nin dəstəyi ilə Kürdəmir Peşə Liseyində 25 nəfər məcburi köçkünlər üçün 3 aylıq dərzilik və vizajist kurslarını təşkil etmişdir.

Cədvəllərə(1 və 2) diqqət yetirsək , görərik ki ,Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2019 cu ilə qədər işçi qüvvəsinin sayının artımı ilə yanaşı həm məşğul əhalinin sayı, həm də muzdlu işçilərin sayında artım olmuşdur. 2019/20 ci illərdə pandemiya ilə əlaqədar müəyyən qədər azalmalar olmuşdur.Burada cədvəllərə diqqqət yetirsək görərik ki,məşğul əhalinin sayı muzdla işləyənlərin sayından 5 dəfədən çox olmasıdır.Bu fakt əmək müqavilәsi və sabit iş yerlərinin olmamasının əlamətidir. Eyni zamanda bu cədvəllərdə əks olunan rəqəmlər bu iqtisadi rayonların ərazilərində yaşayanların sayını tam əks etdirmir . Mütəxəssislərin fikrincə regionlarda iqtisadi fəal əhalinin 25-30% qeyri formal əmək bazarının iştirakçısıdır.Mövsümi işlər də əmək bazarına mənfi təsir edən amillərdən biridir.İqtisadi fəal əhalinin əsas hissəsinin Bakı və Abşeron yarımadasında yerləşməsi əmək bazarına eləcə də ölkə iqtisadiyyatına məfi təsir edir.Ona görə də düşünürük ki, regionların inkişaf etdirilməsi aqrar sektorla yanaşı digər sektorların inkişaf etdirilməsi daha da məqsədəuyğun olardı.Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5000 ə yaxın mikro, kiçik , orta və iri sahibkarlıq subyekti, 90.000 dən çox fərdi sahibkarlıq subyekti fəaliyyət göstərir.Cədvəl 3 ə nəzər yetirsək 2024 cü ilin 1ci yarım ilində Qarabağ iqtisadi rayonunda 2930,Şərqi Zəngəzur iqtisadi rayonunda isə 696 fərdi sahibkarlıq subyekti fəaliyyətə başlamışdır. Eyni zamanda azad edilmiş ərazilərdə Qarabağda 554, Şərqi Zəngəzurda 139 yeni iş yerləri yaradılmışdır. Aşağıda qeyd etdiyimiz vergi, gömrük, kommunal xidmətlər üzrə güzəştlər və maliyyə imkanlarına çıxışların genişlənməsi şərtləri Qarabağ və Şərqi

Zəngəzur iqtisadi rayonlarında biznes üçün münbit şərait yaradıldığı üçün gələcəkdə daha cəlbedici olacaqdır. Bu isə öz növbəsində dayanıqlı məskunlaşmanı və məşğulluğu şərtləndirəcəkdir.

İş yerlərinin yaradılması üzrə Dünya Bankı Qrupunun Dünya İnkişaf Hesabatı iş yerlərinin yaradılmasında milli iqtisadiyyatlarda güclü özəl sektorun aparıcı rolunu vurğulayır. Hesabat yüksək məhsuldar işlərin mövcudluğunun müsbət hadisələr zəncirinə necə başlaya biləcəyindən bəhs edir. Hesabatda qeyd olunduğu kimi, insanlara çətinliklərin öhdəsindən gəlməyə, qadınlara isə uşaqlarının gələcəyinə "sərmayə qoymağa" imkan verən yeni iş yerlərinin yaradılması sayəsində yoxsulluğun səviyyəsi aşağı düşür. İşçilərin bacarıqları yüksəldikcə əmək məhsuldarlığı artır; bu da öz növbəsində yüksək məhsuldarlıqlı işlərin sayının artmasına, aşağı məhsuldarlıqlı işlərin sayının azalmasına səbəb olur. Yeni iş yerləri açıldıqca cəmiyyətlər çiçəklənir, çünki cəmiyyətin bütün üzvlərinin hərtərəfli inkişafı üçün əlverişli şərait yaradılır və bu da öz növbəsində münaqişələrə səbəb olan sosial gərginliyi azaldır.

Cədvəl 1.Qarabağ iqtisadi rayonu üzrə əmək bazarının göstəriciləri(ilin sonuna)

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı. nəfər | 399092 | 415109 | 351863 | 355965 | 359603 | 364332 |
| Məşğul əhalinin sayı .nəfər | 379157 | 394920 | 332062 | 326788 | 335094 | 341242 |
| Muzdlu işçilərin sayı. min nəfər | 70,7 | 68.7 | 69.5 | 67.7 | 65.4 | 65.7 |
| Orta aylıq nominal əməkhaqqı man | 242.0 | 279.5 | 344.9 | 409.9 | 437.4 | 536.6 |
| Yeni açılmış iş yerlərinin sayı | 9603 | 35135 | 12029 | 4536 | 681 | 905 |
| İşsiz əhalinin sayı nəfər | 19935 | 20189 | 19801 | 29177 | 24509 | 23090 |
| İşsizlik səviyyəsi faiz | 5,0 | 4.9 | 5.6 | 8.2 | 6.8 | 6.3 |

Mənbə: www.stat.gov.az/source/regions/

Cədvəl 2.Şərqi Zəngəzur iqtisadi rayonu üzrə əmək bazarının göstəriciləri (ilin sonuna)

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı, nəfər | 164216 | 170544 | 135735 | 136949 | 139415 | 140832 |
| Məşğul əhalinin sayı, nəfər | 154363 | 159704 | 126458 | 123392 | 127657 | 129695 |
| Muzdlu işçilərin sayı, min nəfər | 25,2 | 22.3 | 22.3 | 22.5 | 22.2 | 21.6 |
| Orta aylıq nominal əməkhaqqı man | 258,3 | 330.3 | 414.1 | 500.3 | 482.7 | 583.0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 939 | 693 | 323 | 230 | 199 | 223 |
| İşsiz əhalinin sayı, nəfər | 9853 | 10840 | 9277 | 13557 | 11758 | 11137 |
| İşsizlik səviyyəsi ,faiz | 6,0 | 6.3 | 6.8 | 9.9 | 8.4 | 7.9 |

Mənbə: www.stat.gov.az/source/regions/

Cədvəl 3. Qarabağ  və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2024 cü il I yarısında yeni  yaradılmış iş yerlərinin sayı.

| İqtisadi rayonlar | 2023 cü il | 2024 cü il | |
|---|---|---|---|
| | | I yarımil | II rüb |
| Qarabağ<br>O cümlədən; | 984 | 554 | 410 |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 296 | 195 | 136 |
| Mövcud müəssisə və təşkilatlarda | 521 | 359 | 274 |
| Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı | 6851 | 2930 | 1423 |
| Şərqi Zəngəzur<br>O cümlədən; | 751 | 432 | 222 |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 226 | 139 | 108 |
| Mövcud müəssisə və təşkilatlarda | 525 | 293 | 114 |
| Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı | 890 | 696 | 413 |

Mənbə: https://www.stat.gov.az/source/labour/

## İnvestisiyaların cəlb edilməsində vergi mexanizmlərinin rolu.

Dövlətin iqtisadi siyasətinin bir hissəsi olaraq,  vergi və gömrük güzəştləri, müəyyən sahələrdə və ya spesifik şərtlərlə vergilərin və gömrük rüsumlarının azaldılması, ləğv edilməsi və ya dayandırılması iqtisadi artım məqsədini güdür. Bu güzəştlər, adətən, aşağıdakı məqsədlərə xidmət edir:

1. İnvestisiyaların cəlb edilməsi: Xarici və daxili investisiyaların artırılması üçün vergi və gömrük rüsumlarının azaldılması.
2. İstehsalın dəstəklənməsi: Müəyyən sahələrdə (məsələn, kənd təsərrüfatı, texnologiya) istehsalı stimullaşdırmaq üçün güzəştlərin tətbiq edilməsi.
3. Maliyyə yükünün azaldılması: Kiçik və orta bizneslərə (KOB-lar) dəstək olmaq məqsədilə güzəştlərin təqdim edilməsi.
4. İş yerlərinin yaradılması: Yeni iş yerlərinin yaradılması məqsədilə işəgötürənlər üçün vergi güzəştləri təklif olunması.

5. İxracın artırılması: İxracatçıların dəstəklənməsi üçün gömrük rüsumları azaldılması.

Güzəştlərin adətən qanunvericiliklə tənzimlənir və həmçinin, bu güzəştlərin verilməsi üçün müəyyən şərtlər, prosedurlar və müddətlər mövcuddur.

İşğaldan azad edilmiş ərazilərin zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması , dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması məqsədilə aşağıdakı güzəşt və azadolmalar təsdiq olunmuşdur:

Vergi və gömrük güzəştləri:

İşğaldan azad edilmiş ərazilərin rezidenlərinin 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş və dividend gəlirləri vergidən azad edilir.

Müvafiq sahələr üzrə xammal,material və avadanlıqlar 10 il müddətinə ƏDV və gömrük rüsumlarından azad olunur.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması:

2023-2025-ci illər - 100%
2026-2028-ci illər - 80%
2029-2030-cu illər - 60%
2031-2032-ci illər - 40%

Kommunal xidmətlər üzrə güzəştlər və maliyyə imkanlarına çıxışların genişlənmisi nəzərdə tutulmuşdur. Digər tərəfdən geniş turizm potensialına malik həmin ərazilərə turist axınını stimullaşdırmaq məqsədilə ora səfər edən fiziki şəxslər mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödədikləri ƏDV-nin 30 faizi, nağd qaydada ödədikləri ƏDV-nin isə 5 faizini geri ala bilərlər. Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətini təşviq etmək üçün hökumət yuxarıda sadladığımız bir sıra mühüm addımları atmışdır. KOBİA-nın 01.01.2023-ci il tarixinə qədər olan məlumatına əsasən işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün agentliyə 1339 müraciət daxil olub. Müraciətlərin çoxu, yəni 873-ü yerli, 466-sı isə 37 ölkəni əhatə edən xarici müraciətlərdir. Türkiyə, Rusiya, Qazaxıstan və Macarıstandan olan sahibkarlar Qarabağ və Şərqi Zəngəzurda investisiya qoymağa xüsusən maraqlıdırlar. Gözlənilir ki, dövlət tərəfindən sahibkarlığa dəstək mexanizmləri qısa müddətdə bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərin sayını artıracaqdır

Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura ayırmalar (milyard manat)



İnvestisiya layihələrinin sektorlar üzrə bölgüsü.(01.01.2023)




Lakin, hökumətin bu qədər vergi , gömrük və kommunal güzəştlər etməsinə baxmayaraq xarici iri investorlar və yerli iri şirkətlər üçün hələlik bu cəlbedici görsənmir. Bunun da müəyyən siyasi və iqtisadi səbəbləri vardır. Əsas səbəblərdən onları göstərmk olar ki, Ermənistan Respublikası ilə sülh müqaviləsinin olmaması, bu ərazilərdə istehlakçı sayının az olması, infrastruktur işlərinin tam tamamlanmaması və ərazilərin mina və partlamamış sursatlardan tam təmizlənməməsi və s.

Vergi,gömrük güzəştləri və digər həvəsləndirmələr mexaniki olaraq dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün yerli və xarici investisiyaları iqtisadiyyatın əsas sektorlarına cəlb etmək üçün fiskal tədbirlərdir.İnvestisiyaların cəlb edilməsi üçün bir çox stimullaşdırma metodları vardır: vergidən azad olunma,vergi dərəcələrinin azaldılması,vergi kreditləri,ödənilmiş vergilərdən bir hissəsinin geri qaytarılması və s. Fiskal və tənzimləyici arasındakı balansı, investisiyaların tənzimlənməsinə yönəldilmiş vergi mexanizmləri təmin edir.Real sektorun istehalat-texnoloji bazasının modernləşdirilməsi investisiyaların aktivliyindən birbaşa asılıdır.Vergi güzəştlərindən bir çox o hallarda istifadə olunuir ki, sosial-iqtisadi əhəmiyyətli proyektləri bazar mexanizmlərindən istifadə etməklə həyata keçirmək olmur. Burada investisiyanın məqbul sosial səviyyəsinə çatmaq üçün dövlət subsidiya və vergi güzəştləri edir.Vergi güzəştləri kapitalın xərclərini aşağı salmaqla investisiya artımını stimullaşdırır.Lakin potensial investorlar qeyri investisiya şərtlərini də dəyərləndirərək investisiya qərarları qəbul edirlər.İnvestorları üçün təkcə vergi güzəştləri deyil,həm də məhkəmə sisteminin müstəqilliy,investisiyaların qorunmasının hüquqi təminatlarının çoxluğu,vergi sisteminin mürəkkəbliyinin aşağı olması və şəffaflığı, istehlakçiların alıcılıq qabiliyyəti və sayı və s. kimi şərtlər cəlb edir.Bir çox inkşaf etməkdə olan ölkələrin təcrübələri göstərir ki, infrastrukturun inkişafı, insan kapitalı və institutların olması birbaşa xarici investisiyalar üçün daha cəlbedicidir nəinki vergi güzəştləri.Bəzi mütəxəssislərin fikrincə birbaşa xarici investisiyalar üçün vergi güzəştləri dövlət idarəetməçiliyi güclü olan ölkələrdə daha effektivdir nəinki dövlət idaretməçiliyi zəif olan ölkələrdə.İnvestisiyaların cəlb edilməsinin əsas şərtlərdən biri də dövlərarası beynəlxalq investisiya müqavilələrinin olmasıdır.Belə müqavilələr ikitərəfli və çoxtərəfli olurlar.Praktik olaraq ən çox ikitərəfli investisiya müqavilələri əhəmiyyət kəsb edir.Belə ki,belə müqavilələrə bunlar daxidir;

-birbaşa xarici investisiyaların təşviqi və müdafiəsi mexanizmlərinin müqavilələri(iqtisadi əsaslarla məhkəmə və arbitrajlarda hüquqların təmin edilməsi).

- ikiqat vergitutmanın prosedurunun qarşısını alan müqavilələr.

Belə müqavilələr investorlara vergitutma şəklini aydınlıq gətirir və gələcəkdə gəlirlərindən səmərəli istifadəyə imkan verir.

Lakin vergi güzəştlərinin müsbət tərəfləri olduğu kimi mənfi tərəfləri də vardır.Vergi güzəştlərinin tətbiq olunduğu ərazilərdə əmtəə və xidmətlər daha ucuz başa gəldiyi üçün digər ərazilərdəki əmtəə və xidmətlər baha olduğu üçün haqsız rəqabətə yol açır bu isə öz növbəsində neqativ hallara gətirib çıxarır.Digər tərəfdən büdcə daxil olmaları azalır və cəmiyyətin rifahına mənfi təsir edir.

Paul M.Romerin fikrincə isə iqtisadi inkişafın mərkəzində innovasiyalar dayanır. O, yeni ideyaların yaradılması və tətbiqinin iqtisadi artıma müsbət təsir etdiyini qeyd edir. İnnovasiyalar məhsuldarlığı artırır və iqtisadi sistemin səmərəliliyini yüksəldir. Romerə görə, dövlətin innovasiyaları dəstəkləmək üçün vergi güzəştləri və digər maliyyə stimulları təqdim etməsi mühüm əhəmiyyət kəsb edir. İqtisadi inkişafın innovasiya və texnologiya ilə bağlı olduğunu vurğulayır.Burada geyd etmək istəyirik ki,Paul M.Romer kimi bir çox iqtisadçılar vergi güzəştlərinin ərazilər üzrə deyil, sektorial olmasının tərəfdarıdılar. Müasir dünya iqtisadiyyatının inkişafı innovasiyaların və investisiyaların artması ilə müəyyən edilir.Ona görə də fikrimizcə,Qarabağ və Şərqi Zəngəzurun iqtisdai potensialını nəzərə alaraq,məskulaşmanı,məşğulluğu və ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatının inkişafına daha çox investisiya və innovasiya yönəltmək üçün maliyyə stimullaşdırılmasına ehtiyac duyulur. İqtisadiyyatın vacib sektorlarının inkişafı yerləşdiyi regiondan asılı olaraq,resursların paylanmasına və region iqtisadiyatının daha fərqli inkişafına gətirib çıxaracaqdır.Lakin dövlətin rolu stimullaşdırma ilə yanaşı,eyni zamanda rəqabət qabiliyyətli iqtisadiyyat yaratmalıdır.M.Porterin fikrincə “Hökumətin müvafiq rolu katalizator və yenilikçi kimi çıxış etməkdir; o, şirkətləri öz istəklərini yüksəltməyə və rəqabət səviyyəsini daha yüksəklərə doğru irəliləməyə ruhlandırmalı və ya hətta təkan etməlidir, baxmayaraq ki, bu proses çox xoşagəlməz və çətin ola bilər".M.Porterə görə müəssisələrin investisiya strategiyalarında iqtisadi təsirlərlə yanaşı eyni zamanda yerli icmalarla əməkdaşlıq və sosial təsirlər də nəzərə alınmalıdır.

## Məcburi köçkünlərin bilik və peşə bacarıqlarının artırılması

Elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi dövrdə , iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi rəqəmsallaşmaya keçid əmək bazarında kadrlara olan tələblərin dəyişməsinə, onların yüksək ixtisas, təhsil səviyyəsinə, praktik və peşəkar olmağını tələb edir. Bu isə təbii ki, əraziyə geri dönməsi təmin ediləcək insanların məşğulluğunun təmin edilməsi üçün onların sözügedən iqtisadi rayonlarda nəzərdə tutulan iqtisadi sahələr üzrə bilik, peşə hazırlıqlarına və bacarıqlarının inkişaf etdirilməsinə xüsusi diqqət tələb edir.

Son zamanlar elm və texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə cəmiyyətimizin və həyatımızın sosial vəziyyəti dəyişir. Bu vəziyyət cəmiyyətin təhsil sisteminə də təsir edir. Belə ki, təhsil sisteminin daxilində peşə təhsilinə də tələbləri artırır. Peşə təhsili yüksək işçi təminatı mexanizmi kimi çıxış edir. Peşə təhsilinin kifayət qədər

uğurlu olması üçün tam dövlət təminatı olmalı və həm də eyni zamanda peşə təhsili hamı üçün əlçatan olmalıdır. Peşə məktəblərində dövlət və özəl sektorun ehtiyaclarını ödəyəcək qədər işçi ehtiyyatı yaradılmalıdır. İşçilərin bacarıqlarının artırılması biznesin uğurlu inkişafı üçün zəruridir, çünki mütəmadi olaraq təlim keçən kadrlar peşəkar bacarıqlarını genişləndirir və daha səmərəli işləyirlər. O, həmçinin şəxsi inkişafı və özünü həyatda təsdiqə həvəsləndirir və təşviq edir.

Əmək bazarında ixtisaslı kadrların hazırlanmasının təşkilində peşə təhsili müəssisələrinin danılmaz rolu mühümdür. Həyata keçirilən tədbirlərə baxmayaraq, təhsil sisteminin prioritet sahələrindən biri olan peşə təhsili və təlimi sistemində müəyyən problemlər mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə orta məktəb məzunlarının 40-60 faizi peşə təhsili müəssisələrinə qəbul olunduğu halda, Azərbaycanda bu rəqəmin 11 faizdən az olması əhalinin bu təhsil sahəsinə marağının az olduğunu göstərir. Peşə təhsili və təlimi sistemində bir sıra problemlərin mövcud olmasına baxmayaraq, ölkə səviyyəsində aparılan məqsədyönlü islahatlar çərçivəsində, bütövlükdə, ölkə iqtisadiyyatında müşahidə olunan müsbət meyillər peşə təhsili sistemi qarşısında yeni tələblər qoyur. İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sənayesi sahələri ilə yanaşı, qeyri-neft sektorunun yüksək əlavə dəyər yaradan sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər əmək bazarında rəqabətqabiliyyətli və ixtisaslı kadrlara tələbatı artırır.

Bazar iqtisaqdiyyatı şəraitində müasir iqtisadiyyat işçi kadrlara və bütün kadr hazırlığı və yenidənhazırlıq sisteminə yüksək tələblər təqdim edir.Elmi texniki tərəqinin gedişatında bəzi peşələr sıradan çıxacaq,digərləri meydana gələcək və başqaları isə daha da təkminləşəcəkdir.İş qrafikləri sıxlaşır,texniki vasitələr inkişaf edir bütün bunlar mütəxəsislərin,menecerlərin və işçilərin təhsil,bilik, və peşə bacarıqlarının yeni formalarının axtarışına səbəb olur.Müasir iqtisadi proseslər işçilərin psixoloji amillərinə,intellektual səviyyəsinə, məhsuldarlıq və mədəni inkişafına,informasiyanın qəbuluna və emalına yüsək tələblər irəli sürür.Zəruri bilik,bacarıq və səriştəyə malik kadrlar maddi resurslardan rasional istifadə edərək daha çox maddi dəyər yaradaraq iqtisadi artımı təmin edirlər.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq,Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişafı ,dayanıqlı məskunlaşma və məşğulluğu təmin etmək üçün yüksək səviyyəli bilik, bacarıqlı və səriştəli kadrlara ehtiyac olacaqdır.

## Nəticə və təkliflər

Məqalədə yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Böyük Qayıdış zamanı məskunlaşmanın effektiv həyata keçirilməsi yolları araşdırılmışdır.İşğaldan azad olunmuş ərazilərdə məskunlaşmanın və məşğuluğun dayanıqlı olması üçün sahibkarlıq fəaliyyənin genişlənməsinin təşviq edilməsi nəzərdən keçirilmişdir.Fərdi və ailə təssərrüfatlarının inkişafı üçün münbit biznes şəraitinin yaradılmasına üstünlük verilməsi məqsədəuyğun hesab edilmişdir. Düşünürük ki, məskunlaşmanın kütləvi olması üçün təkcə dövlət tərəfindən deyil eyni zamanda fərdi insanların özləri üçün ev tikməsinə də icazə verilməlidir.Məcburi köçkünlərin doğma yurdlarına dönüşü, onların məskunlaşması və məşğulluğu iqtisadi təhlükəsizliyinin artırılmasında roluna baxılmışdır. Məşğulluqla bağlı məsələlərə nəzər yetirilmiş və onun həll yolları göstərilmişdir. Qarabağ və Şərqi

Zəngəzur iqtisadi rayonlarına köçəcək insanların ənənəvi məşğulluqlarına şərait yaradılmasına məqbul hesab edilmişdir. Böyük Qayıdış zamanı və sonrakı dövrlərdə məskulaşmanı və məşğulluğun dayanıqlı olması üçün aşağıdakılar təklif edilir;

-yenidənqurma və bərpa işlərində məcburi köçkünlərə daha çox üstünlüyün verilməsi;
-fərdi evlərin layihələndirilməsinə və tikintisinə daha çox imkanların yaradılması;
-bu iqtisadi rayonlar üzrə iqtisadi fəal əhalinin hazırkı peşə-ixtisas səviyyəsi üzrə məlumatların dəqiqləşdirilməsi
-özünüməşğulluq çərçivəsində ailə biznesinin təşviqi və geniş imkanların yaradılması;
- nəzərdə tutulan vacib sahələr üzrə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün lazım olacaq işçi qüvvəsinin sayı, tərkibi, ixtisas səviyyəsi haqqında tam və etibarlı uçotunu hazırlanması;
-bu iqtisadi rayonlara qayıdacaq məcburi köçkünlərin zəruri peşə-ixtisas biliklərinə, bacarıqlarına və səriştələrinə yiyələnməsinin təşkili;
-investisiyaların cəlb edilməsi üçün insan kapitalına önəm verilməsi və maliyyə bazrının inkişaf etdirilməsi:
-investorlara dəstək olmaq üçün iqtisadiyyat nazirliyi yanında investisiyalara dəstək dövlət agentliyinin yaradılması;
-güzəştlərin düzgün icra edilməsi üçün müvafiq idarəetmə mexanizmləri vacibdir. Vergi orqanları, güzəştlərin verilməsi və monitorinqi prosesində əhəmiyyətli rol oynamalıdırlar.
-güzəştlərin təsirinin qiymətləndirilməsi üçün mütəmadi olaraq statistik məlumatlar toplanmalı və analiz edilməlidir.
-vergi və gömrük güzəştləri iqtisadi sektorlar üzrə də tətbiq edilsin.
- məhkəmə sisteminin müstəqilliy,investisiyaların qorunmasının hüquqi təminatlarının çoxluğu,vergi sisteminin mürəkkəbliyinin aşağı olması və şəffaflığın təmin olunması.

## References


- Bayramov, Vugar. "A Comparative Study on Development of Small and Medium Enterprises (SMEs) in Azerbaijan, Baku, 2017.

- Bayramov, Vugar, Lejla Šachin gyzy Alieva, and Xalid Mikayilov. CESD policy report on tourism sector in Azerbaijan. Universitäts-und Landesbibliothek Sachsen-Anhalt, 2011

- Patricia Weiss Fagen. Refugees and IDPs after Conflict. Why They Do Not Go Home. Special Report 268. United States Institute of Peace. April 2011

- Vüsət Əfəndiyev, Saleh Nağıyev. Əhali coğrafiyası. Bakı 2006

- Кристиан Бодвиг. Сборник материалов по вопросам социального обеспечения. Ситуация после завершения межнационального конфликта: проблемы организации системы социальной защиты населения в странах с переходной экономикой. Отдел Социального Обеспечения Населения. Отдел Человеческого Развития. Всемирный банк. Июнь 2002 г.

- T.Ə.Quliyev. "İnsan resurslarının idarə edilməsi". Bakı, 2014.

- "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi-praktiki Konfransın
- materialları.Bakı, 2018

- Васяйчева В. А., Слатов Д. Г. Рынок труда и трудовая миграция: учеб. пособие. Самара .2018

- Вякина И.В. Налоговые инвестиционные стимулы: мировой опыт и российская практика // МИР (Модернизация. Инновации. Развитие). 2018. Т. 9. № 4. С. 618–631

- Bayramov, Vugar and Islamli, Nigar and Mammadov, Emin, Assessment of Gender Equality & Women's Empowerment in the Post-Soviet Space (January 13, 2023). Available at SSRN: https://ssrn.com/abstract=4323803 or http://dx.doi.org/10.2139/ssrn.4323803

- Bayramov, V., Safarova, G., Garajayev, M. (2023). Economic Effects of Belt and Road Initiative: The Case of Southern Caucasus and Central Asia Countries. In: Wang, L. (eds) China's Development and the Construction of the Community with a Shared Future for Mankind. Research Series on the Chinese Dream and China’s Development Path. Springer, Singapore. https://doi.org/10.1007/978-981-19-7423-6_50

- Bayramov, V. (2008). A Comparative Analysis of CIS Countries’ WTO Accession; Ways to European Integration, http://siteresources.worldbank.org/INTRAD/Resources/Bayramov.pdf

- Российский работник: образование, профессия, квалификация:монография. ИД Высшей школы экономики, 2011

- Колесник Е. А. Стратегии занятости беженцев и вынужденных мигрантов: региональный аспект // Управленческое консультирование. 2023. № 5.

- Paul M. Romer. Human capital and growth: theory and evidence, Cambridge 1989.

- Paul M. Romer. Increasing Returns and Long-Run Growth. The Journal of Political Economy, Vol. 94, No. 5. (Oct., 1986).pp1002-1037.

- V. Bayramov, "Competitiveness in Azerbaijan. Assessing Sectorial Economic Policies." (2014)

- Vugar Bayramov, Nabi Rustamli, Gulnara Abbas, Collateral damage: The Western sanctions on Russia and the evaluation of implications for Russia’s post-communist neighbourhood, International Economics, Volume 162, 2020, Pages 92-109, ISSN 2110- 7017, https://doi.org/10.1016/j.inteco.2020.01.002

- V Bayramov, Azerbaijan Economy in 2015: New Opportunities for Further Diversification, Journal of Economic Sciences: Theory & Practice , volume 73 , issue 1 , p. 45 - 51 Posted: 2016

- Vugar Bayramov, (2010a). Azerbaijan’s Accession to World Trade Organization (WTO); Pros and Cons. The Center for Economic and Social Development, стр. 3-36.

- Vugar Bayramov, Gulnara Abbas, Oil shock in the Caspian Basin: Diversification policy and subsidized economies, Resources Policy, Volume 54, 2017, Pages 149-156, ISSN 0301-4207, https://doi.org/10.1016/j.resourpol.2017.10.006

- Портер М. (2016) Международная конкуренция: пер. с англ. 740 стр https://azertag.az/xeber/2019_2030_cu_iller_uchun_Azerbaycan_Respublikasinin_Mesgulluq_Strategiyasi-1209753

- Bayramov, Vugar, and Leyla Aliyeva. "CESD Anti-Corruption Strategy for the Republic of Azerbaijan." (2011)

- https://www.stat.gov.az/source/regions/

- https://www.stat.gov.az/source/labour/

- https://unec.edu.az/application/uploads/2015/02/UNEC_Expert_11_2022.pdf

- https://ru.wikipedia.org/wiki/%D0%93%D0%B5%D1%80%D0%BC%D0%B0%D0%BD%D0%B8%D1%8F_%D0%B2_1945%E2%80%941949_%D0%B3%D0%BE%D0%B4%D0%B0%D1%85